DOI: https://www.doi.org/10.36719/2663-4619/65/188-190

**Lalə İlqar qızı Mehtiyeva**
Bakı Dövlət Universiteti
magistrant
lala-mehdiyeva@inbox.ru

# AZƏRBAYCAN-ABŞ ƏLAQƏLƏRİNİN TARİXİ VƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİN QURULMASI

***Açar sözlər**: ikitərəfli münasibətlər, Azərbaycan, Cənubi Qafqazın açar ölkəsi, ABŞ, balans siyasəti, stratejik müttəfiqlik, qazan-qazan prinsipi, qarşılıqlı-fayadalı əməkdaşlıq*

## History of Azerbaıjan-Us relations and establishment of the diplomatic relations

**Summary**

Bilateral relations, which date back to the end of the 19th century, began to develop mainly after our country gained independence on October 18, 1991. Of course, in the first years of independence, the United States took a cautious approach to bilateral relations with Azerbaijan, based on the thesis of Russia first. Nevertheless, over the years, the United States has deeply studied Azerbaijan as a key country in the South Caucasus, and analyzed it in terms of strengthening long-term bilateral relations. If we evaluate the bilateral relations over 4 periods, as a result of A.Mutallibov's pro-Russian policy, A.Elchibey's excessive preference for the pro-Western policy without taking into account the Russian factor, the bilateral relations could not develop sufficiently. However, thanks to the balance policy founded by Heydar Aliyev and successfully developed by Ilham Aliyev today, Azerbaijan-US relations have risen to the level of a strategic alliance and strengthened on a win-win basis.

***Key words**: bilateral relations, Azerbaijan, key country of the South Caucasus, USA, balance policy, strategic alliance, win-win principle, mutually beneficial cooperation*

## Giriş

Tarixi 19-cu əsrin sonlarına dayanan ikitərəfli münasibətlər, əsasasən, ölkəmiz 1991-ci il 18 oktyabrda müstəqillik əldə etdikdən sonra inkişaf etməyə başlamışdır. Təbii ki, müstəqilliyin ilk illərində ABŞ Azərbaycanla ikitərəfli münasibətlərə Russia first (Əvvəlcə Rusiya) tezisindən çıxış edərək, ehtiyatla yanaşmışdır. Buna baxmayaraq, ABŞ bu illər ərzində Azərbaycanı Cənubi Qafqazın açar ölkəsi olaraq, dərindən araşdırmış və gələcək uzunmüddətli perspektivli ikitərərfli əlaqələrin güclənməsi baxımından analiz etmişdir. İkitərəfli əlaqələri 4 dövr üzərindən dəyərləndirsək, A.Mütəllibovun Rusiya meyilli siyasəti, Ə.Elçibəyin Rusiya faktorunu nəzərə almadan, hədsiz dərəcədə Qərb yönümlü siyasətə üstünlük verməsi nəticəsində ikitərəfli əlaqələr yetərincə inkişaf edə bilməmişdir. Ancaq, əsası Heydər Əliyev tətəfindən qoyulan və bugün uğurlu bir şəkildə İlham Əliyev tərəfindən inkişaf etdirilən balans siyasəti sayəsində Azərbaycan-ABŞ münasibətləri stratejik müttəfiqlik səviyyəsinə yüksəlmiş və “qazan-qazan” prinsipi əsasında daha gücləndirilmişdir.

İki dövlət arasındakı münasibətlərin tarixinə nəzər salsaq, XIX əsrin 70-80-ci illərinə xüsusi diqqət yetirmək lazımdır. Çünki, həmin dövr ərzində Bakıda neft sənayesinin yaranması və formalaşması öz növbəsində ABŞ-ın nəhəng şirkətlərinin Azərbaycan neftinə ciddi maraq göstərməsinə səbəb olmuşdur. Bu illərdə Rusiya bazarında neft məhsullarının satışına nəzarət Standart oil şirkətinə məxsus idi. Tədricən Rusiya bazarından sıxışdırılıb çıxarılan bu nəhəng kompaniya, vaxtiylə burada güclü mövqeyə sahip olan şirkətlərlə (İngiltərə və Avropa ölkələri) danışıqlar aparmaq üçün öz nümayəndəsini Bakıya göndərmişdi. Bütün bu tədbirlərə baxmayaraq, Avropa dövlətləri ilə ABŞ arasındakı rəqabət və ziddiyyətlərin mövcudluğu, Standat Oil şirkətinin Bakıda möhkəmlənməsinə zəmin yaratmamışdır. Həmçinin, XX əsrdə mövcud olan ingilis-amerikan qarşıdurması və İngiltərənin Azərbaycandakı güclü mövqeyi ikitərəfli iqtisadi münasibətlərin yaranmasına imkan verməmişdir (Həsənov, 1998: 144).

Artıq Çar Rusiyası dağıldıqdan və 1919-cu ilin 28 mayında AXC yarandıqdan sonra ikitərəfli siyasi-diplomatik münasibətlərin yaradılması istiqamətində mühüm addımlar atıldı. Bu çərçivədə, Parisdə, Azərbaycan parlamentinin sədri Ə.M.Tobçubaşovun rəhbərliyi altında nümayəndə heyətinin ABŞ prezidenti V.Vilsonla görüşünü xüsusi vurğulamaq lazımdır. Görüşdə Azərbaycanın istiqlaliyyətinin tanınması, Millətlər Cəmiyyətinə qəbul edilməsi, ABŞ-la diplomatik əlaqələrin qurulmasıyla bağlı Azərbaycan hökümətinin rəsmi memorandomu V.Vilsona təqdim edilmişdi (Həsənov, 2015: 50-51). Lakin Azərbaycan nümayəndə heyətinin tələbləri V.Vilson və digər dövlətlər tərəfindən qəbul edilmədi.Yəni, Paris sülh konfransı Azərbaycanın müstəqilliyinin tanınması məsələsini açıq saxladı. Bu məsələnin pərdə arxası məqamı isə, dövrün geosiyasi, geostrateji və geoiqtisadi maraqlarında öz əksini tapmışdır. Belə ki, nə ABŞ nə də ki digər müttəfiq dövlətlər mövcud şəraitdə imperiya

maraqlarından çıxış edərək, Cənubi Qafqazda yeni müstəqil dövlətlərin yaranması niyyətində deyildilər (Merdanov, 2005: 63).

Həmin dövrdə İngiltərənin Azərbaycandakı güclü mövqeyi də ABŞ-ın Azərbaycanın müstəqilliyini tanımasına, onunla siyasi əlaqələr qurmasına mane oldu. Buna baxmayaraq, ABŞ üçün Azərbaycanla iqtisadi əlaqələrin qurulması ölkəmizin sahip olduğu zəngin təbii ehtiyatlar və iqtisadi potensial baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bunun ən bariz nümunəsi olaraq, Bakıda ABŞ konsulluğunun açılmasını göstərə bilərik. Sonrakı dövrdə Azərbaycanda Sovet rejiminin yaranması ilə ikitərəfli əlaqələr kəsilmiş və SSRİ-nin süqutuna qədər heç bir rəsmi münasibət olmamışdır (Həsənov, 1998: 145).

SSRİ-nin dağılmasıyla birlikdə yeni yaranan müstəqil dövlətlərdən biri olan Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr tarixində Konstitutsiya Aktının qəbul edilməsiylə, öz müstəqilliyini rəsmi şəkildə bəyan etdi. Həmin dövrdə, Azərbaycanın xarici siyasət sahəsində ən vacib məsələlərdən biri də öz müstəqilliyinin digər dövlətlər tərəfindən, əsas etibariylə də, dünyanın güclü və nüfüzlu dövlətləri tərəfindən tanınmaq və dövlətin gələcək inkişafı naminə bu kimi dövlətlərlə olan əməkdaşlıq və onların dəstəyini almaq idi.

Məhz bu baxımdan yenicə müstəqillik qazanmış Azərbaycan üçün dünyanın super güclü dövləti olan ABŞ tərəfindən beynəlxalq sistemin suveren subyekti kimi tanınmaq, onunla diplomatik münasibətlər qurmaq və eyni zamanda, gələcəkdə müxtəlif sferalarda çoxşaxəli əməkdaşlıq əlaqələrinin bünövrəsini formalaşdırmaq və inkişaf etdirmək həyati əhəmiyyətli məslələr hesab olunurdu. Digər tərəfdən, ikiqütüblü sistemin dağılması və SSRİ-nin süqutu ilə bərabər Cənubi Qafqaz kimi geosiyasi, geoiqtisadi və geostratejik amillərin təsir parametrlərinin dərin vəhdət təşkil etdiyi mühüm bir regionda meydana gələn güc boşluğunun, onu tarazlayan yeni bir güc ilə əvəzlənməsi nöqteyi nəzərindən ABŞ kimi bir fövqəldövlətin Azərbaycanla əlaqələrin qurulmasına xüsusi önəm verdiyini də söyləyə bilərik.

Beləliklə, 1991-ci il dekabrın 25-də rəsmi Vaşinqton öz müstəqilliyini elan etmiş müstəqil Azərbaycanı rəsmən tanıdığını bəyan etdi. Daha sonra,1992-ci il martın 18-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 1992-ci il 17 martda Azərbaycan Respublikasının ABŞ-da səfirliyi, ABŞ-ın Azərbaycanda səfirliyi isə, həmin ilin noyabr ayında açılmışdır. ABŞ-ın Azərbaycanda ilk səfiri isə Riçard Mayls olmuşdur (Musa, 2011: 507). İkitərəfli münasibətlərin inkişaf trayektoriyasını 4 əsas dövr üzərində təhlil etmək mümkündür:

Ayaz Mütəllibovun hakimiyyəti illərində (1990-1992) Azərbaycan tam müstəqil surətdə xarici siyasət həyata keçirə bilməmişdir. Çünki, A.Mütəllibovun Rusiyaya meyilli xarici siyasət kursu, xüsusilə Dağlıq Qarabağ probleminin həllində Rusiyaya ümid bəsləməsi, həmin dövrdə Azərbaycanın Rusiyadan asılılığının getdikcə artmasına səbəb olmuşdur. Rusiya isə, bu məsələdə ikili siyasət yürüdərək, ermənilərə dəstək vermişdir (Yılmaz, 2013: 79-80). Həmçinin ABŞ Xarici işlər nazirinin müavini Stroub Talbotun "Russia first" (əvvəlcə Rusiya) tezisinə əsasən, ABŞ-ın Azərbaycanı Rusiyanın arxa baxçası olaraq görməsi faktı da ikitərəfli əlaqələrə mənfi təsir etmişdir. Təbii ki, belə bir siyasi zəmin öz növbəsində Azərbaycanın ABŞ-la normal münasibətlər qurmasına və bunu inkişaf etdirməsinə mane olmuşdur.

Əvvəlki illərdən fərqli olaraq, Ə.Elçibəy dövründə, Rusiya əleyhdarı və Türkiyə və ABŞ leyhinə xarici siyasət kursu tətbiq edilmişdir. Bu dövrdə AXC hökuməti hesab edirdi ki, ABŞ Qarabağ probleminin həllində Rusiyanın tarazlaşdıran güc vasitəsi olaraq daha aktiv şəkildə fəaliyyət göstərəcəkdir. Lakin, ABŞ konfliktin ATƏT çərçivəsində və bütün tərəflərlə danışıqlar aparmaq yoluyla həllindən yana olduğunu ifadə etmişdir. Hətta ABŞ-dakı güclü erməni lobbisinin təsiri ilə zamanla ermənipərəst siyasət yürütmüştür. Buna əyani misal olaraq, 24 oktyabr 1992-ci ildə qəbul edilən qərarı göstərə bilərik. Bu dövrdə, Qərb neft şirkətlərinin Azərbaycana investisiyaları artmış və xüsusən də ABŞ-ın neft şirkətləriylə bir sıra müqavilələr bağlanmışdır. 1991-ci ilin yanvarından etibarən ABŞ neft şirkəti Amoco Azərbaycan neftinə maraq göstərmişdir (Cafersoy, 2001: 139-146).

Heydər Əliyev hakimiyyətə gəldikdən sonra (1993-2003) həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu nəticəsində, istər Azərbaycanın xarici siyasətində, istərsə də ABŞ-la əlaqələrdə müsbət mənada irəliləyiş özünü göstərdi. Bu baxımdan, H.Əliyevin 1997-ci ildə ABŞ-a səfəri ikitərəfli əlaqələrin inkişafında xüsusi rol kəsb edir. Səfər çərçivəsində, ABŞ-ın vitse-prezidenti Albert Gore və ümummilli lider H.Əliyev arasında hər iki ölkə arasında enerji sahəsində əməkdaşlıq, həmçinin Chevron, Exxon, Mobil neft şirkətləri ilə Socar arasında Abşeron, Naxçıvan və Oğuz adlı neft yataqlarının istismarı ilə bağlı müqavilələr imzalanmışdır (Aslanlı və b, 2005: 217).

2000-ci il yanvarın 29-da H.Əliyevin ABŞ-ın sabiq prezidenti Bill Klinton ilə görüşü ikitərəfli münasibətlərin istiləşməsinə kömək etdi. Görüş zamanı, iki dövlət arasında enerji sektorunda Əsrin müqaviləsiylə əsası qoyulan əməkdaşlığın davam etdiriləcəyi, Bakı-Ceyhan və Transxəzər boru kəmərləri kimi layihələrin reallaşdırılmasında ölkəmizin əvəzsiz rolu, bu çərçivədə ABŞ-ın dəstəyi və aparıcı neft şirkətləri ilə faydalı əməkdaşlığı xüsusi vurğulamışdır (Əliyev, 2008: 342-343).

Məhz H.Əliyevin dövründə ölkəmiz Qərb neft şirkətləri ilə 10 milyonlarla dollar dəyərində 20 neft və qaz müqaviləsi imzalayaraq, neftin beynəlxalq bazarlara daşınması məsələsində Qərb ölkələri ilə əməkdaşlığı inkişaf etdirərək, ABŞ-la iqtisadi əlaqələri gücləndirmişdir (Veliyev və b, 2011: s.45).

İlham Əliyev də 2003-cü ildə prezident seçildikdən sonra əsası Heydər Əliyev tərəfindən qoyulan balaslaşdırılmış xarici siyasət strategiyasına sadiq qalacağını bildirmişdir. Çünki, Azərbaycan mürəkkəb geosiyasi, əlverişli geostrateji və zəngin geoiqtisadi mövqeyə sahib olduğuna görə, daima regional və qlobal güclərin çarpaz maraqlarının toqquşma nöqtəsi hesab olunur. ABŞ-la münasibətlər də bu çərçivədə dəyərləndirmək lazımdır.

Belə ki, 2006-ci il aprel ayında İ. Əliyev ABŞ-a səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin sürətlə inkişaf etdiyini, ölkəmizdə və regionda irimiqyaslı enerji layihələrinin həyata keçirilməsində ABŞ-ın dəstəyini xüsusi vurğulanmışdır. Həmçinin, ölkəmizin terrorizmlə mübarizədə ABŞ-ı aktif surətdə dəstəklədiyi və bu istiqamətdə ikitərəfli əməkdaşlıqda maraqlı olduğu ifadə edilmişdir (Çelikpala, 2013: s.293-294). Bu baxımdan, 2008-ci ildən Azərbaycan ordusunun NATO standartlarına uğun olaraq təşkil edilməsi, NATO ilə inteqrasiya prosesinin sürətləndirilməsi kimi tədbirlər ikitərəfli əməkdaşlığı gücləndirdi. Hətta, ABŞ hökuməti tərəfindən ölkəmizə edilən hərbi yardımın həcmi artaraq 4,3 milyon dollara yüksəldildi. 2008-ci ildən etibarən isə, ABŞ nümayəndə heyətinin ölkəmizə səfərləri artmış, bu da öz növbəsində ikitərəfli əlaqələr müsbət töhfə vermişdir. Təbii ki, bu səfərlərin əsasını Nabucco və Transxəzər boru xətti kimi enerji layihələrinin reallaşdırılması təşkil edirdi (Beşikçi, 2016: 248-249).

Bundan əlavə, 2020-ci ilin 26 fevralında ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri ikitərəfli əlaqələrdə enerji sektorunun açar rol oynadığını bildirir. Səfər çərçivəsində, Cənub Qaz dəhlizinin önəmi, bu layihəyə ABŞ-ın misilsiz dəstəyi vəölkəmizdə alternativ enerji mənbələrinin inkişafı kimi məsələlərlə bağlı aparılan danışıqlar ikitrəfli əməkdaşlıqda hər iki ökənin də eyni dərəcədə maraqlı olduğunu bir daha sübut etdi (Əliyev 2020: 121-122).

## Nəticə

Ümumiyyətlə, H.Əliyev dövründən bu yana həyata keçirilən və bugün İ.Əliyev tərəfindən məqsədyönlü şəkildə icra edilən "balans siyasəti" sayəsində Azərbaycan Cənubi Qafqazın "açar ölkəsi" olaraq, "Rusiya-ABŞ" tərəzisi indiki dövrdə isə, Rusiya-İran-ABŞ-Türkiyə-Çin beşbucaqlısı üzərində uğurlu xarici siyasət xəttini davam etdirir. Azərbaycan kəskin Rusiya amilini nəzərə alaraq, Qərb ölkələri başda olmaqla ABŞ ilə əlaqələrini müxtəlif sferalarda əməkdaşlığını qarşılıqlı fayda prinsipi əsasında həyata keçirir. Təbii ki, Rusiya da zaman-zaman sərt mövqedən çıxış etsə də, Azərbaycanı sadiq bir müttəfiq kimi itirməmək, Qərbə və ABŞ-a daha da yaxınlaşmasına müəyyən dərəcədə göz yumur. Bütün sadalanan ehtimallarda ölkəmiz böhranlı vəziyyəti fürsətə çevirərək, qazan-qazan prinsipi əsasında ABŞ-la strateji əməkdaşlıq istiqamətində əlaqələrini hər zaman gücləndirməyə çalışır.

## References

1. Hasanov A. Azerbaijan's foreign policy: European countries and the United States (1991-1996). Baku: "Azerbaijan State Publishing House", 1998, p. 315
2. Hasanov A. Geopolitics of Azerbaijan. Baku: "Zardabi LTD LLC", 2015, p. 1056
3. Merdanov S. The period of uncertainty in Azerbaijan-US relations (1991-1994). International Eurasian Strategic Studies of Chankırı Karatekin University , 2 (1), 2005, p. 47-70
4. Musa İ. Contemporary International Relations and Azerbaijan's Foreign Policy. Baku: "Baku University" publishing house, 2011, p. 776
5. Yılmaz R. What I saw in the Caucasus that could not be solved: the Nagorno-Karabakh problem. Chankırı Karatekin University, International Eurasian Strategic Studies, 2 (1), 2013, p. 71-90.
6. Jafersoy N. Azerbaijan Foreign Policy in Elchibey Period (June 1992-June 1993). Ankara: "ASAM Publications", 2001, p. 164
7. Aslanli A., Hasanov İ. Azerbaijani Foreign Policy in the Heydar Aliyev Period (1993-2003). Ankara: "Platin Publications", 2005, p. 282
8. Aliyev H. Our independence is eternal. Baku: Azerneshr, 2008, p. 504
9. Veliyev J., Aslanlı A. South Caucasus Territorial integrity, geopolitical struggles and energy. "Ankara Berikan Publishing House", 2011. p. 399
10. Chelikpala M.Azerbaijan's foreign policy in Ilham Aliyev's period : Problems, Priorities and Relationships. Azerbaijan as a rising star of the Caucasus in Ilham Aliyev's Period Ankara: "Ataturk Research Center". 2013, p. 402
11. Beshikchi S. Strategic Changes and Directions in Azerbaijan's Foreign Policy in the Post-Independence Period. Journal of Turkish World Studies, Volume 16, Issue 2, 2016, p. 238-252
12. Aliyev I. Development is our goal. Baku: Azerneshr, 2020, p. 392

**Rəyçi: dos. T.Tağıyeva**

Göndərilib: 06.04.2021 Qəbul edilib: 07.04.2021